Erməni separatçıları Xankəndində yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə ağlasığmaz vəhşilik törətdilər. Xocalı şəhəri yerlə yeksan olundu. Bu hərbi birləşmənin vəhşiliyi nəticəsində 613 nəfər şəhid, 487 nəfər şikəst oldu. Xocalının 1275 nəfər dinc sakini əsir götürüldü. 150 nəfərin taleyi hələ indiyə qədər də məlum deyil. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri azyaşlı uşaqlardır. Şikəstlərin 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır. 6 ailə tamamilə yer üzərindən silinmişdir. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. 66 nəfər xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onların başları kəsilmiş, beyinləri və gözləri çıxarılmış, başlarının dərisi soyulmuş, meyitləri üzərində müxtəlif həqarətlər olunmuşdur.

Bəşər tarixində ən amansız müharibənin də aman verən qanunları olub. Həmin qanunlara görə uşaqlara, qadınlara, qocalara, silahsızlara, şikəst adamlara toxunulmur. Xocalı qırğını belə ali qanunların hamısını puç etdi. Xocalı faciəsi bəşər tarixində misli görünməyən ən böyük terror hadisəsi idi.

XX əsr Azərbaycan xalqının həyatına, tarixinə ən qanlı, fəlakətli və faciəli bir əsr kimi daxil olmuşdur. Bu əsrin demək olar ki, bütün onillikləri qanla yuyulmuşdur. Xocalı faciəsi bu qanlı dəryanın ən dərini, sarsıdıcısı və vəhşiliklərlə dolu zirvəsi sayıla bilər.

Xocalı qırğını XX əsrin sinəsində açılan ən dərin, qanlı şırımdır. Əsrlər keçəcək, yeni-yeni nəsillər gələcək, amma bu şırımın üstünü daşkəsək, ot-alaq basa bilməyəcək. Dünyanın hansı qitəsindən baxılsa bu şırımın izləri görünəcək. Xocalı qırğını Azərbaycan xalqının yaddaşından heç zaman silinməyəcək. Bu elə bir fəlakətdir ki, dağı-iniltisi hələ neçə əsr davam edəcəkdir.

Xocalı dağı bizim hamımızın dağıdır. Xocalı faciəsi bizim hamımızın faciəsidir. Xocalı



qaçqınları isə bizim bacı-qardaşlarımızdır.

Xocalı faciəsi neçə-neçə analarımızı oğulsuz, qızlarımızı qardaşsız, gəlinlərimizi dul qoydu. Xocalı faciəsi neçə-neçə körpələrimizi ata həsrəti ilə, ata nisgili ilə böyüməyə məcbur etdi. Ölüm haqdır. Biz hamımız bu yolu gedəcəyik. Lakin şəhid olmaq ölmək demək deyildir. Nə qədər ki, biz varıq şəhidlərimiz də yaşayacaqlar, nə qədər ki, Azərbaycan var şəhidlərimiz də unudulmayacaqlar. Onların ölümü bizi kədərləndirməməlidir. Çünki şəhidlərimiz öz ölümləri ilə xalqımıza başucalığı gətirdilər. Çünki onlar öz ölümləri ilə xalqımıza üzağlığı gəlirdilər!




***XX əsr gözəl illəri ilə yadımızda qalsa da, bizlərə faciəli günləri də yaşatmalı oldu. 1992-ci ilin 26 fevral Xocalı faciəsi buna canlı sübutdur.***

Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin səyi və siyasi nüfuzu nəticəsində torpaqlarımız sülh yolu ilə düşmən tapdağından azad olacaqdır. Bütün qaçqınlarımız, o cümlədən Xocalıdan olan bacı-qardaşlarımız öz dədə-baba yurdlarına qayıdacaqlar. Xocalımız yenidən abadlaşacaq, yenidən tikiləcək. Xocalımız qəhrəmanlıq, mərdlik şəhəri olacaqdır.

İnanırıq ki, düşmən əlinə keçməmək üçün özünü dağlardan-qayalardan atan ismətli gəlinlərimizin, müqəddəslik-paklıq rəmzləri olan qızlarımızın abidələri ucalacaq Xocalımızda. İnanırıq ki, dərddən belləri bükülən, lakin düşmən qarşısında qamətlərini dik saxlayan, ağlayıbsızlayan, lakin düşmənə göz yaşlarını göstərməyən və müqəddəs ana adının əyilməzliyini, məğrurluğunu bir daha düşmənə sübut edirən analarımızın abidələri ucalacaq Xocalımızda. Xocalının hər kəndi, hər qarışı, hər daşı sinəsini düşmən tanklarının, pulemyotlarının qarşısında sipər edən, öz ölümləri ilə ölümsüzlüyə qovuşan, o müdhiş gecənin şəhidləri olan şəhidlərimizin adı ilə adlanacaq. Biz buna ürəkdən, bütün varlığımızla inanırıq!

**Məryam Əliyeva,**
**Kürdəmir rayon MKS-nin metodika şöbəsinin baş kitabxanaçısı**